

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 187 (23.098)

3 oktyabr 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## 1993-cü il 3 oktyabr – müstəqilliyin, sabitliyin və davamlı inkişafın təməlinin qoyulduğu gün

*Müstəqilliyi ikinci dəfə əldə etmək keçmiş ittifaqın digər ölkələri ilə müqayisədə Azərbaycanda daha da çətin olmuş, bu yolda Vətənimizin yüzlərlə qəhrəman övladı xalqımızın azadlığı uğrunda mübarizə apararaq şəhidlik zirvəsinə yüksəlmişlər. Ancaq söhbət təkcə bu müstəqilliyi qazanmaqdan yox, həm də onu qoruyub saxlamaqdan gedirdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin sözləri ilə desək: **"Müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir"**.*

Çox böyük uzaqgörənliklə söylənilmiş bu fikirlərin təsdiqini ölkəmizin ən yeni tarixində baş vermiş siyasi proseslərin timsalında bir daha gördük. Çünki Azərbaycan 1991-ci ildə öz müstəqilliyini yenidən qazansa da, 1993-cü ilin iyun ayının ortalarınadək ölkədəki mövcud vəziyyət onu sübut etdi ki, bu müstəqilliyin sütunları kövrəkdir. Müxtəlif yollarla hakimiyyətə gəlmiş naşı və bacarıqsız qüvvələrin fəaliyyətsizliyi ölkədə özbaşınalığın artmasına, daxili sabitliyin pozulmasına və torpaqlarımızın işğalına səbəb olmuşdu. Artıq xalq başa düşürdü ki, ölkəni düşdüyü bu bəlalardan yalnız Heydər Əliyev dühası xilas edə bilər. Beləliklə, 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın tələb və təkidi ilə yenidən siyasi hakimiyyətə qayıdışı, həmin il oktyabr ayının 3-də ölkə Prezidenti seçilməsi isə Azərbaycanda sabitliyin, inkişaf və tərəqqinin başlanğıcı olmuşdur. Bu mənada, 3 oktyabr Azərbaycanın ən yeni tarixində mühüm əhəmiyyəti ilə seçilir.

Dahi şəxsiyyətin ölkə Prezidenti kimi fəaliyyəti bundan əvvəl Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi dövrdə həyata keçirdiyi milli dövlətçilik ideyalarının davamı olmuş, atılan addımlar müstəqilliyimizin qorunmasını və inkişafını, Azərbaycanın dünya dövlətləri sırasında özünə layiqli yer tutmasını şərtləndirmişdir. Belə ki, görkəmli dövlət xadimi Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə muxtar respublikanı düşmən təcavüzündən xilas etmiş, bu qədim Azərbaycan diyarında müstəqil dövlətçilik ənənələrini formalaşdırmışdı. Dahi şəxsiyyətin uzaqgörən siyasəti sayəsində muxtar respublikanın adından "sovet sosialist" sözləri çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edilmiş, milli ordumuzun ilk hərbi birləşmələri yaradılmışdır.

***"Mən həmişə xalqla bir olmuşam, xalqın taleyini öz taleyim bilmişəm. Həyatımı xalqın xoşbəxtliyinə həsr etmişəm və son nəfəsimədək bu yolda mübarizə aparacağam"***, – deyən ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyun ayında Bakıya qayıdışı isə Azərbaycanın xilası, qurtuluşu kimi tarixə qızıl hərflərlə yazılmışdır. İndi siyasi baxışlarından və dünyagörüşündən asılı olmayaraq, hər kəs etiraf edir ki, əgər böyük Qayıdış baş verməsəydi, ümumiyyətlə, Azərbaycanın bir dövlət kimi mövcudluğundan söhbət gedə bilməzdi. 3 oktyabr tarixi isə sözün həqiqi mənasında, Azərbaycan xalqının qarşısında duran tarixi sınaq idi. Çünki xalqın əzm və iradəsinin ifadəsi kimi yaddaşlara yazılan həmin seçkidə ulu öndər Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Bu hadisə həm də Azərbaycan xalqının öz tarixində ədalətli, şəffaf və demokratik seçki keçirmək ənənəsinin təməlinin qoyulduğu gün kimi əlamətdardır.



Prezident seçkilərində xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən ulu öndərimiz 1993-cü ilin 10 oktyabrında dövlətə və xalqa sədaqət andı içərək demişdir: ***"Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".***

Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin oktyabr ayından ölkə rəhbəri kimi fəaliyyətə başlaması qısa müddətdə ölkəmizdə köklü dəyişikliklərin baş verməsinə səbəb oldu. Azərbaycan 1969-cu ildə ulu öndər tərəfindən əsası qoyulan inkişaf və tərəqqi yoluna qayıtdı. Ulu öndərin həyata keçirdiyi sosial-iqtisadi və siyasi tədbirlərin nəticəsi kimi ölkəmizin milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələr yaradıldı, torpaqlarımızın işğalının qarşısı alındı, digər tərəfdən, atəşkəs əldə edildi, Azərbaycanın haqq səsi dünyaya çatdırıldı. Yaradılmış sabitliyin nəticəsində qısa müddətdə beynəlxalq aləmdə Azərbaycana münasibət müsbət istiqamətdə xeyli dəyişdi. Elə bu inamın nəticəsi olaraq 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandı. Bununla da ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının tərkib hissəsi olan neft strategiyasının əsası qoyuldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Müstəqilliyimizin tarixində 1993-cü il müstəsna əhəmiyyətə malikdir. O zaman, mürəkkəb durumda xalqımız çox müdrik və tarixi bir seçim etmiş, Heydər Əliyevi ölkənin Prezidenti seçmişdir. Böyük nüfuza və şöhrətə malik olan bu siyasi xadim Azərbaycanda inkişafın təməlini qoymuşdur".***

Ümummilli liderin fəaliyyəti həm də ölkəmizin demokratik dövlət kimi dünya birliyində tanınması və qəbul edilməsi ilə bağlı idi. Azərbaycanı qüdrətli, nüfuzlu, demokratik dövlət kimi görmək istəyən görkəmli dövlət xadiminin uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Bununla da ölkəmizdə hüquqi dövlət quruculuğu prosesinə başlanıldı, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinə xidmət edən qanunvericilik bazası yaradıldı, demokratik cəmiyyət formalaşdırıldı. Eyni zamanda həyata keçirilən uğurlu xarici siyasət kursu nəticəsində beynəlxalq təşkilatlarla bərabərhüquqlu əməkdaşlığın əsası qoyuldu. Belə əməkdaşlıq münasibətləri isə tarixən Böyük İpək Yolunun əsas iştirakçılarından olan Azərbaycanın Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılmasında, Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarına çıxarılması layihələrində rolunu ortaya qoydu. Bu gün Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolunun, TANAP və TAP kimi beynəlxalq enerji layihələrinin həyata keçirilməsi Azərbaycanın dünyadakı siyasi və iqtisadi qüdrətinin göstəricisidir.

1993-cü il 3 oktyabr seçkilərinin bəhrəsini bu gün ölkəmizin ictimai-siyasi həyatında və sosial-iqtisadi inkişafında daha aydın görürük. Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizi iqtisadi inkişaf baxımından dünyanın aparıcı dövlətlərinin sırasına yüksəltmişdir. Əsrlərboyu azadlıq uğrunda mübarizə aparmış Azərbaycan xalqı məhz ulu öndər Heydər Əliyevin və onun siyasətini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin fəaliyyəti sayəsində müasir beynəlxalq münasibətlər sistemində nüfuzlu söz sahibinə çevrilmişdir. Bunu da qeyd etmək lazımdır ki, Azərbaycan bu gün təkcə sosial, siyasi, iqtisadi sahələrdə yox, həm də humanitar sahədə həyata keçirdiyi tədbirlərlə dünyanın diqqət mərkəzindədir. Ötən dövrdə multikulturalizmin, tolerant dəyərlərin müdafiəçisi kimi özünü təsdiq edən Azərbaycan həm də müasir dövrdə mədəniyyətlərarası dialoqun inkişafına verdiyi töhfə ilə tanınır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 1993-cü ilin 3 oktyabr tarixinin siyasi əhəmiyyəti barədə demişdir: ***"1993-cü ilə qədər Azərbaycanda hakimiyyətsizlik, siyasi hərc-mərclik, vətəndaş qarşıdurması hökm sürürdüsə, həmin tarixdən sonrakı dövr ölkəmizdə dövlət müstəqilliyinin möhkəmlənməsi ilə xarakterizə edilir. 1993-cü ildən sonra Azərbaycanın inkişafı göz qabağındadır. Əgər o vaxt Azərbaycanda xaos hökm sürürdüsə, bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idisə, bu gün Azərbaycanda əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdısa, bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycanda total böhran hökm sürürdüsə, bu gün Azərbaycan qüdrətli ölkəyə çevrilmişdir".***

Heydər Əliyev siyasi yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası son illər sürətlə inkişaf edərək özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Naxçıvan özünün abadlığı, təmizliyi, sabitlik və əmin-amanlığı ilə bura yolu düşən hər kəsin diqqətini cəlb edir. Ötən əsrin sonlarında düşmənlə üz-üzə mərdanə dayanaraq çətin dövrlərini yaşayan Naxçıvan bu gün artıq müxtəlif beynəlxalq tədbirlərin keçirildiyi məkana, Şərqlə Qərb arasında müxtəlif əməkdaşlıq əlaqələrinin inkişaf etdirildiyi mühüm körpüyə çevrilmişdir. Təsadüfi deyil ki, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı statusunu daşıması Naxçıvanın İslam dünyasındakı yerini müəyyən edirsə, Avropa İttifaqının üzvü olan dövlətlərin diplomatik nümayəndələrinin iştirakı ilə Naxçıvanda "Avropa günləri"nin keçirilməsi bu qədim diyarın Qərb üçün əhəmiyyətini ortaya qoyur. Eyni zamanda Naxçıvan iqtisadi sahədə əldə etdiyi nəticələri ilə ölkəmizin digər regionları ilə müqayisədə öncül yerdədir. Hazırda enerji istehsalının 70 faizini alternativ mənbələrdən əldə edən muxtar respublika bu sahədə bir çox ölkələr üçün nümunə gücündədir. Bütün bu uğurlar isə Heydər Əliyev yoluna sədaqətin, Vətənə, dövlətə və dövlətçiliyə məhəbbətin təzahürüdür.

**"Şərq qapısı"**

## Mətbuat xidməti əməkdaşları üçün təkrar attestasiyanın test imtahanı mərhələsi keçirilib

*Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında mətbuat xidmətlərinin fəaliyyətlərinin təşkili və qarşıda duran vəzifələrlə bağlı 19 may 2018-ci il tarixdə keçirilən tədbirdə qarşıya qoyulmuş tapşırıqların icrasının təmin edilməsi məqsədilə oktyabrın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test mərkəzində təkrar attestasiyaya cəlb olunmuş dövlət orqanlarının mətbuat və ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşlarının test imtahanı keçirilib.*

Test imtahanında 7 iyun 2018-ci il tarixdə keçirilən müsabiqədə keçid balını (50 bal) toplaya bilməmiş, habelə sosial məzuniyyətdən qayıtmış 6 dövlət qulluqçusu iştirak edib, namizədlərdən 5-i müvafiq keçid balını toplayıb.

İmtahanda iştirakçılara qanunvericilik üzrə 70, dünyagörüşü üzrə 30 sual olmaqla, ümumilikdə, 100 sual təqdim edilib. Test imtahanında tələb olunan balı toplayan şəxslər attestasiyanın ikinci mərhələsində iştirak etmək hüququ qazanıblar. İkinci mərhələdə esse yazılmaqla iştirakçıların yaradıcılıq qabiliyyətləri qiymətləndiriləcəkdir.

İmtahan başlanmazdan əvvəl iştirakçılar slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumatlandırılıblar. Sualları cavablandırmaq



üçün iştirakçılara 2 saat 30 dəqiqə vaxt verilib. Test imtahanında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb. İmtahan bitdikdən dərhal sonra iştirakçılara cavab kartı və test imtahanının nəticəsinə dair arayış təqdim edilib.

Test imtahanının nəticələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet səhifəsində (*www.dqmk.nmr.az*) yerləşdirilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Kestutis Yankauskas: “Avropa İttifaqı Naxçıvanla əməkdaşlığı genişləndirməkdə maraqlıdır”




*Azərbaycanın bütün dünyaya yayımlanan CBC kanalının “Günün iqtisadiyyatı” verilişində ölkənin, o cümlədən Naxçıvanın ixrac və enerji potensialı ilə bağlı məsələlər barədə söhbət açılıb.*

Verilişin qonağı Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas Avropa İttifaqı ilə Azərbaycan arasında iqtisadi münasibətlər, həyata keçirilən birgə beynəlxalq layihələr, energetika sahəsi və biznes əlaqələrindən geniş söhbət açıb. Verilişdə qonaq, həmçinin ötən ay Naxçıvana etdiyi səfərdən və qədim diyarda “Avropa günləri”nin yüksək səviyyədə təşkilindən də danışıb. Qeyd edib ki, Naxçıvan Muxtar Respublikası alternativ və bərpaolunan enerji istehsalı sahəsində dünyada qabaqcıl mövqedə dayanır.

Kestutis Yankauskas deyib: “Naxçıvanda keçirilən biznes-forumda burada istehsal edilən yerli məhsullar bizə təqdim edildi. Biz şahidi olduq ki, Naxçıvanda istehsal, əsasən, yerli xammala əsaslanır və çeşid müxtəlifliyi çoxdur. Biz Avropa ölkələrinin Azərbaycandakı səfirləri ilə birgə qatıldığımız tədbirlərdə, keçirdiyimiz yüksək səviyyəli görüşlərdə o qənaətə gəldik ki, ixrac imkanlarının artırılması muxtar respublikanın iqtisadiyyatının daha da gücləndirilməsinə öz töhfəsini verə bilər. Bu gün muxtar respublikadan ixrac olunan məhsullar Türkiyəyə və oradan Avropa ölkələrinə göndərilir. Mən fikirləşirəm ki, Naxçıvanın yerli istehsal və ixrac imkanları yetərincə yüksəkdir. Xüsusilə kənd təsərrüfatı, mineral sular, dekorativ daş və duz məhsulları sahəsində. Amma təkcə bu deyil, digər sahələrdə də potensial var. Naxçıvanda müasir kənd təsərrüfatı məhsulları laboratoriyası mövcuddur. Burada məhsullara beynəlxalq sertifikat verilir. Bu məhsullar Avropada müxtəlif sərgilərə çıxarılır. Mən fikirləşirəm ki, bundan sonra da qarşılıqlı fayda verən əməkdaşlıq sahələri genişlənəcək”.

**“Nuhçıxan” İnformasiya Agentliyi**

## Mövsümə hazırlıq işləri sürətləndirilir



*2018-ci il avqust ayının 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar keçirilən müşavirədə Ali Məclisin Sədri deyib:* ***“Naxçıvan Muxtar Respublikasında artıq bir neçə ildir ki, payız-qış mövsümü heç bir problem olmadan başa vurulur. Ölkə Prezidentinin diqqət və qayğısı sayəsində muxtar respublikanın bütün ərazisinin qazlaşdırılması, yeni elektrik stansiyalarının istifadəyə verilməsi hesabına fasiləsiz enerji təchizatı təmin edilib ki, bu da payız-qış mövsümündə meydana çıxan çətinlikləri aradan qaldırıb... Görülmüş işlər muxtar respublika sakinlərinin rahat yaşayışının təmin olunmasına, normal şəraitin yaradılmasına xidmət edir. Bu rahatlığın qış aylarında da qorunub saxlanılması, qarşıya çıxan problemlərin aradan qaldırılması üçün mövsümə hazırlıq işlərinə indidən başlamalı, lazımi mal-material ehtiyatı yaratmalıyıq”.***

Müxtəlif aidiyyəti qurumlar qarşısında mühüm vəzifələr qoyulan müşavirədən sonra həmin vəzifələrin vaxtlı-vaxtında yerinə yetirilməsi məqsədilə idarə, müəssisə və təşkilatlarda tədbirlər keçirilib.

Şərur rayonunda da payız-qış mövsümünə hazırlıqla bağlı İcra Hakimiyyətində keçirilən tədbirdə bir sıra məsələlər gündəmə gətirilib, görülücək işlər müəyyənləşdirilib. Ötən müddət ərzində aidiyyəti təşkilatlar bu istiqamətdə ardıcıl tədbirlər həyata keçiriblər. Görülən işlər belə deməyə əsas verir ki, mövsümü mütəşəkkilliklə başa vurmağa əsas var.

Rayon Elektrik Şəbəkəsindən aldığımız məlumata görə, şəbəkə tərəfindən payız-qış mövsümü ilə əlaqədar 10 və 0,4 kilovoltluq transformator yarımstansiyaları və hava xətləri texniki baxışdan keçirilib, mövcud olan texniki qüsurlar aşkarlanıb və bunların aradan qaldırılmasına başlanılıb. Qəza halı yaradan amillərin aradan qaldırılması üçün davamlı olaraq xətt məftillərinin ağaclardan təmizlənməsi diqqətdə saxlanılıb və bu iş davam etdirilməkdədir. İndiyə kimi 234 kilometr uzunluqda olan 10 və 0,4 kilovoltluq hava xətti məftilləri ağaclardan təmizlənib.

Digər vacib tədbirlərin də görülməsi diqqətdə saxlanılaraq transformatorlarda, yarımstansiyalarda şitlərin açıq yerləri örtülüb, 14 transformator yarımstansiyasında şitlərin sınıq qapaqları bərpa olunub, 36 transformator yarımstansiyasında sınıq izolyator, yanmış kabel və məftillər dəyişdirilib, l6 transformatora avtomat quraşdırılıb və 51 transformatora yağ əlavə olunub. Xətlərdə və transformator yarımstansiyalarında mövcud olan xətt və şin ayırıcıları təmir edilib və yeniləri quraşdırılıb. Belə ki, Axura, Tənənəm, Xanlıqlar, Danyeri, Dəmirçi, Yuxarı Yaycı, Aşağı Yaycı, Gümüşlü, Şahbulaq, Yeni Havuş, Xətai, Oğuz, Dərəkənd, Həmzəli, Dizə kəndlərində olan hava xətləri və transformator yarımstansiyasının yerləri bir daha yoxlanılıb və qabaqlayıcı tədbirlər görülüb. 28 transformator yarımstansiyasında yüklərin fazalar arasında bərabər bölünməsi həyata keçirilib.

Qışa hazırlıqla əlaqədar mal-material ehtiyatının yaradılmasına ciddi önəm verilib. Belə ki, 7 transformator, 3800 metr məftil, 22 dib gövdə, 28 dayaq, 18 keçid izolyatoru, 450 metr kabel, 28 cərəyan transformatoru, 800 kiloqram transformator yağı, 3 avtomat açar, 5 xətt ayırıcısı alınıb.

Şəbəkənin iş texnikaları və minik avtomobilləri saz vəziyyətdədir və lazım olan zəruri ehtiyat hissələri ilə təmin olunublar.

Rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsi də mövsümə hazırlıq işlərini xeyli sürətləndirib. Bölgə sakinlərini içməli su ilə təmin etmək məqsədilə subartezian quyularından, yeni çəkilmiş içməli su sistemindən istifadə edilir. Bəhs olunan dövrdə – cari ilin 8 ayı ərzində 233 subartezian quyusu əsaslı təmir olunub, 8,44 kilometr içməli su xəttində təmir işləri aparılıb və bu işlər davam etdirilir.

2012-ci ildən icrasına başlanılan Şərur şəhəri içməli su və təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinə əsasən Şərur şəhərinə, Mahmudkəndə, Zeyvə kəndinin bir hissəsinə və Yengicə kəndinə çəkilən su şəbəkəsi və aparılan ev birləşmələri, tikilən qalereya, hər birinin tutumu 10 min kubmetr olan iki və tutumu 7500 kubmetr olan bir, cəmi tutumu 27 min 500 kubmetr olan 3 su anbarı mövsümü uğurla başa vurmağa öz töhfəsini verəcək. Layihə çərçivəsində müxtəlifdiametrli plastik borularla 90,3 kilometr içməli su xətti çəkilib, 3598 ev su şəbəkəsinə qoşulub. Rayon mərkəzində 1696, Mahmudkənddə 760, Zeyvə-Düdəngə kəndinin bir hissəsində 248, Yengicə kəndində 894 sayğac quraşdırılıb. Bununla da adıçəkilən yaşayış məntəqələrində, ümumilikdə, 18 min 132 nəfərin içməli su ilə davamlı olaraq 24 saat təmin edilməsi reallaşdırılıb. Rayon mərkəzində içməli su xətlərinin donmaması məqsədilə ictimai binaların giriş qapıları və pəncərələrinin düzəldilməsi diqqətdə saxlanılıb, əhali ilə maarifləndirmə işləri aparılıb. Mövsümü uğurla başa vurmaq üçün idarə digər tədbirlərin icrasını davam etdirir, görülən işlərin keyfiyyətlə və vaxtında başa çatdırılmasına ciddi önəm verilir.

Bu dövrdə rayon Qaz İstismar İdarəsi də qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində fəallıq göstərib. Məlumat üçün bildirək ki, idarə 18 min 389 əhali abonentinin, 434 qeyri-əhali abonentinin təbii qazla təminatına xidmət göstərir.

2018-ci ilin 8 ayı ərzində 92 yeni yaşayış mənzilinə, 10 qeyri-əhali abonentinə, cəmi 102 abonentə yeni qaz xətti çəkilərək təbii qazla təmin edilib. Texniki səbəbdən dayanmış 131 ədəd qaz sayğacı yenisi ilə əvəz olunub, idarənin qəza-dispetçer xidmətinə 2209 çağırış daxil olub, bu məlumatlar əsasında qaz təsərrüfatı nəzarətçilərinin keçirdiyi yoxlamalar nəticəsində aşkar edilmiş 735 sızma halının qarşısı alınıb.

Yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma və abadlıq işlərinin aparılması zamanı 17 min 458 p/m dəmir və polietilen borudan istifadə olunub.

Rayon ərazisində qaz sayğaclarının mühafizəsi üçün qutuların quraşdırılması davam etdirilməkdədir. Bu günədək 6376 mühafizə qutusu quraşdırılıb.

Qış mövsümünün yaxınlaşması ilə əlaqədar olaraq idarə tərəfindən rayon ərazisində qaz boru xətlərinə və avadanlıqlarına texniki baxış keçirilir, korroziyaya uğramış borular yenisi ilə əvəz edilir, avadanlıqların nasaz hissələri dəyişdirilir. Bununla bağlı qaztənzimləyici şkafların ətrafı təmizlənərək siyirtmələr yağlanıb, normal işləməsi üçün lazımi tədbirlər həyata keçirilib. Qaztənzimləyici şkafların qış mövsümündə normal fəaliyyət göstərməsi və onlarda yarana biləcək nasazlıqların dərhal aradan qaldırılması üçün “Naxçıvanqaz” İstehsalat Birliyindən ehtiyat hissələri gətirilməsi üçün sifariş verilib. Qaz itkisinin qarşısını almaq üçün rayon ərazisində daimi reydlər keçirilir. Aşkar olunmuş nöqsanlar aradan qaldırılır.

**Muxtar MƏMMƏDOV**

*Bakıda Heydər Əliyev Mərkəzində IX Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib.*

## IX Azərbaycan-Rusiya Regionlararası Forumunda muxtar respublikanın nümayəndə heyəti də iştirak edib

Azərbaycanın İqtisadiyyat Nazirliyi və Rusiyanın İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı ilə keçirilən forumda Azərbaycan və Rusiya tərəfdən dövlət qurumlarının, parlamentlərin, icra hakimiyyəti orqanlarının nümayəndələri, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlıq və mətbuat işçiləri iştirak ediblər.

Forum çərçivəsində Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan İşgüzar Şuralarının geniş tərkibdə iclası keçirilib. Tədbirdə hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, sənaye, tikinti, bank, qida, maşınqayırma, metallurgiya, nəqliyyat, əczaçılıq və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak ediblər.

Foruma Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti də qatılıb.

Forumda sənaye və energetika, turizm, kənd təsərrüfatı, kiçik və orta sahibkarlıq, nəqliyyat və tranzit, qadın sahibkarlığı və humanitar sahələr olmaqla, 7 istiqamət üzrə keçirilən dəyirmi masa və plenar iclaslarda Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri, nazirliyin sektor müdiri, muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərindən “Prestij-Naxçıvan Pivəsi”, “Ordubad Qənnadı Məmulatları”, “Gəmiqaya Mineral Sular”, “Böyrək Suyu” Məhdud Məsuliyyətli cəmiyyətlərinin və “Xalaoğlu” müəssisəsinin nümayəndələri iştirak ediblər.

Dəyirmi masada muxtar respublikanın istehsal imkanları və ixrac potensialının təbliği məqsədilə Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafı və ixrac potensialına dair geniş məlumatlar verilib, həmçinin “Caspian Energy” jurnalının Naxçıvana həsr olunmuş 2017-ci il buraxılışı və muxtar respublikada sənaye sektorunda fəaliyyət göstərən bir sıra istehsal müəssisələrinin kataloqları forum iştirakçılarına təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

## Hərbi və hüquq-mühafizə orqanlarında çalışan maliyyə işçiləri üçün kurslara başlanılıb



*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi büdcə təşkilatlarının maliyyə və mühasibatlıq işində çalışanların mövcud biliklərinin artırılması və ixtisaslarının təkmilləşdirilməsi istiqamətində işlərini davam etdirir.*

Tədris mərkəzi növbəti təlimə hərbi və hüquq-mühafizə orqanlarında çalışan maliyyə və mühasibatlıq üzrə mütəxəssisləri dəvət edib. Bu sahə üçün xüsusi hazırlanmış kursa 2018-ci il 2-5 oktyabr tarixlərdə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində və onun Penitensiar Xidmətində, Vergilər Nazirliyində, Dövlət Gömrük Komitəsində, Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasında çalışan 18 mütəxəssis cəlb olunub.

“Büdcə təşkilatlarında praktik mühasibatlıq” adlı kurs 5 moduldan ibarət olaraq Naxçıvan Muxtar Respublikası Maliyyə və Vergilər nazirliklərinin, eləcə də Naxçıvan Muxtar Respublika Prokurorluğunun ekspertlərinin təqdimatları üzrə mərkəzin tədris zalında keçirilir. Təkmilləşdirici kursda Milli Mühasibat Uçotu Standartlarına əsasən hüquq-mühafizə orqanlarında maliyyə-mühasibat işinin aparılması, xəzinə əməliyyatlarının təşkili və uçotu, vergi uçotunun təşkili, hərbi hissələrdə və hüquq-mühafizə orqanlarında maliyyə hesabatlarının hazırlanması mövzuları ilə yanaşı, tədris prosesində ilk dəfə olaraq “Mühasibat uçotu işinin aparılması ilə əlaqədar hüquqi məsuliyyət” mövzusu üzrə məlumatların da əhatəli şəkildə iştirakçılara çatdırılması nəzərdə tutulub.

Qeyd edək ki, kurs 4 gün, 12 tədris saatı olmaqla təşkil olunub, praktik məsələ və testlərin həllinə yer ayrılıb, eyni zamanda bir sıra mərhələlərlə – suallara cavab, testlərin işlənməsi və sorğu-anketlərin doldurulması ilə zənginləşdirilib. Bundan əlavə, tədris zamanı ekspertlər tərəfindən təlimçilərin müşahidə edilməsi təlimin daha effektli keçirilməsinə imkan verir. Həmçinin tədris prosesində iştirakçılara gündəlik işlərində faydalı ola biləcək təlim materialları – slaydlar, müvafiq sahə üzrə normativ-hüquqi aktlar, sənəd formaları, təlimatlar, qaydalar və misalları özündə ehtiva edən vəsaitlər təqdim olunacaq.

Peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi mərhələsindən sonra dinləyicilərə Maliyyə Tədris Mərkəzinin sertifikatları təqdim ediləcəkdir.

**Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti**

## Seminar keçirilib

*“Dövlət qulluqçularının etik davranış qaydaları” mövzusunda keçirilən seminarı Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin aparat rəhbəri Nurlan Fətəliyev açaraq tədbirin mahiyyəti haqqında məlumat verib.*

Komitənin əməkdaşı Tural Cəfərov “Dövlət qulluqçularının əsas hüquq və vəzifələri” mövzusunda çıxış edərək bildirib ki, qanunvericilikdə dövlət qulluqçularının hüquqları ilə yanaşı, vəzifələri də təsbit olunub. Dövlət qulluqçuları vətəndaşların hüquq və azadlıqlarını, onların qanuni mənafelərini təmin etməyə və qorumağa borcludurlar. Vətəndaşların və ictimai birliklərin, habelə müəssisə, idarə və təşkilatların, dövlət və yerli özünüidarəetmə orqanlarının müraciətlərinə öz qulluq vəzifəsi çərçivəsində vaxtında baxmaq və qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq qərarlar qəbul etmək dövlət qulluqçusunun vəzifə borclarındandır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın əməkdaşı Mahir Abbasov “Dövlət qulluqçularının etik davranış qaydaları” mövzusunda çıxış edərək bildirib ki, vətəndaşın dövlət orqanında hər hansı bir vəzifə tutması üçün onun həmin vəzifəni tutmağa mənəvi hüququ olmalıdır. Dövlət qulluqçusunun qulluq etikası normalarına və dövlət orqanında müəyyən olunmuş daxili xidmət qaydalarına əməl etməsi barədə tələb çox mühüm əhəmiyyətə malikdir.

Sonra Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin əməkdaşı Əkbər Quliyevin “Dövlət qulluğunda çalışmaq dövlətə və xalqa xidmət imkanıdır” mövzusunda çıxışı dinlənilib.

**Xəbərlər şöbəsi**

# Duzun söz yükü

## Naxçıvanın folklor nümunələri və adət-ənənələrində duz zəngin məna çalarlarına malikdir

*Naxçıvan Duzdağı özünün qədimliyi ilə dünya və bəşər tarixində ən əhəmiyyətli yerlərdən birini tutur. Tarixi mənbələr, müxtəlif alim və səyyahların qeydləri, həmçinin burada aparılan arxeoloji tədqiqatlar zamanı tapılan maddi-mədəniyyət nümunələri də bu yerin tarixinin daha qədimlərə aid olduğunu göstərir. Karbon analizlərinin gətirdiyi nəticələr isə Naxçıvan Duzdağının, ümumən, dünyada ən qədim duzçıxarma tarixinə malik olduğunu təsdiqləyib. Tədqiqatçıların qənaətinə görə, Naxçıvan yaxınlığında mövcud olan Duzdağ həm də Naxçıvan şəhərinin bizim eradan əvvəl üçüncü-ikinci minilliklərdə təşəkkül tapan qədim şəhər mədəniyyətinin formalaşmasında mühüm rol oynayıb.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Tarixşünaslıq baxımından bugünkü Naxçıvan özündə üç vacib elementi birləşdirir: o, həm tarixiliyi yaşadır, həm müqəddəsliyi yaşadır, həm də yeni həyatın başlandığı yerdir. Dünyada çox az sayda ərazilər var ki, qədim sivilizasiyanın davamlı inkişafını izləmək üçün qeyd olunan 3 amilin hamısını özündə cəmləşdirə bilsin”.*** Bu mənada, Naxçıvan Duzdağı və duz Naxçıvanın tarixi ilə bağlı vacib faktları ortaya çıxara biləcək mühüm detallardandır. Ümumiyyətlə, doğru deyilmişdir ki, duz bütün türk xalqlarında müqəddəs sayılan bir maddə, nemət olaraq diqqət çəkir. Türk inam və mədəniyyətində duzun əhəmiyyətli bir yeri vardır. Belə bir qədim tarixə malik olan və özünün xüsusi əhəmiyyətilə mühüm mövqe nümayiş etdirən Naxçıvan duzu və Duzdağı yerli əhalinin müxtəlif yaradıcılıq sahələrində də xüsusi məna yükü daşımaqla bədii-estetik səciyyə və fəallıq qazanmışdır.

Təsadüfi deyil ki, Naxçıvanın zəngin folklor nümunələrində, xüsusilə atalar sözü, məsəllər kimi hikmətli sözlərdə və bir çox adət-ənənələrimizdə duz çoxobrazlı məna yükünə malikdir. Ümumiyyətlə, “duz” sözü təkcə Azərbaycan üçün deyil, ümumən, türk, hətta dünya xalqlarının bir çoxu üçün “dad verən qida vasitəsi” olmaqdan başqa özündə məcazi mənalar da ifadə edən bir söz, hətta inanclar sistemində xüsusi yeri olan simvol olaraq diqqəti cəlb edir. “Azərbaycan dilinin izahlı lüğəti”ndə “duz”un ifadə etdiyi bir çox məna çoxvariantlığı göstərilib. Bu baxımdan adı təməl qida olan çörəklə birlikdə çəkilən duz, demək olar ki, dilimizdə təkcə qida vasitəsinin adı kimi deyil, müxtəlif söz konstruksiyaları daxilində məcazi mənalar da ifadə edən leksik vahid kimi diqqəti cəlb edir. Bütün bu məna çalarları, söz yox ki, xalqın düşüncə tərzini də bütün səciyyəsi və məzmunu ilə anlamağa imkan verir. Maraqlıdır ki, “duz” sözü bəzi türk xalqlarında “tuz”, bəzilərində “toz”, Azərbaycan xalqı da daxil olmaqla bəzilərində “duz” şəklində işlənir.

Duz həm də dünyanın ən qədim inanc kitablarından olan “Əhdi-ətiq” və “Əhdi-cədid”də də özünə yer tapmışdır. Məsələn, “Əhdi-ətiq”də deyilir: “Rəbbinin önündə əbədi duz əhdidir”. “Əhdi-cədid”də isə bu cür əksini tapır: “Torpağın duzu yaradanın tərifini anlatsın”. Göründüyü kimi, duzun inanclardan irəli gələrək müxtəlif ayinlər daxilində istifadə edilməsi və özünəməxsus məna daşıması təkcə türk-müsəlman xalqlarında deyil, başqa xalqlarda da özünə yer alıb, müxtəlif ayinlər daxilində istifadə edilib. Lakin xalqların və icra tərzlərinin fərqliliklərindən asılı olmayaraq, bu ayinlərin içərisinə daxil olan “duz”, demək olar ki, tamamilə eyni funksiya və məcazi mənanı ehtiva edir. Lakin bunu da diqqətdə saxlamaq lazımdır ki, hər halda, duzun vətəni olan və olmayan ölkələr üçün duz tamamilə eyni məna və əhəmiyyət kəsb edə bilməz. Bu mənada, ən qədim duz mərkəzlərindən və duz sənayesinin beşiklərindən olan Naxçıvanda duz daha geniş və çoxçalarlı bir məna-məzmun xüsusiyyəti və inanc kultuna malikdir.



Həm mifologiyada, həm də Əbdülqazi Bahadır xanın “Şəcəreyi-tərəkəmə”sində duzun Türk ata tərəfindən tapılaraq məişətə daxil olduğu göstərilir. Orada deyilir: “Günlərdən bir gün ova çıxıb ov ovlayıb kabab çəkib yeyirdi. Bir parça ət yerə düşdü, onu yeyincə ağzına çox xoş bir dad gəldi. Çünki o yer duzlu bir yer idi. Yeməyə duz qatmasını o gətirdi”. Başqa fikirlərə görə isə duzu kəşf edən və həyat tərzinə daxil edən şəxs Nuhun nəvəsi və Türkün oğlu olan Tutukdur. Bununla bağlı Naxçıvanın xalq ədəbiyyatı materiallarında bir mifə rast gəlinməsi də maraq doğurur. Mahmud Kaşğarlının məşhur “Divani-lüğət it-türk” əsərində “duz” kəlməsinə 18 yerdə rast gəlinir. Lüğətdə duzun, sözün həqiqi mənasında, qida vasitəsinin adı kimi, digər mənalarda isə məcazi olaraq müxtəlif çalarlarda istifadəsi izah edilmişdir. Beləliklə, demək olar ki, bir çox məna çalarına malik olan “duz” sözü dilin leksik sistemində özünə əsas yer tutaraq xalqın inam və inancı ilə əlaqəli “gözəllik, sədaqət, vəfa, etibar, əhəmiyyət” və başqa bu kimi mənalarda işlənib.

Bəli, bir sıra mənbələrdə qeyd olunduğu kimi, türklərin tarixinə, ədəbiyyatına və folkloruna girən duz-çörək haqqı dostluq, vəfa, arxadayaq, sədaqət, insanlıq, səmimiyyət, mərdlik, dürüstlük kimi qavramları məzmununa qatan zəngin bir qəlibdir. Ədəbi mənbələrdə “duz” həm də “əbədi varlıq və zaman” deməkdir. Necə ki qədim inanc kitablarında Tanrı ilə insanın əhd-peymanında duzun oynadığı rola, yaradılışa duz qatılmasına, nağıllarda oyaq qalmaq üçün yaraya duz səpilməsi və başqa ritual və inanclara rast gəlinir.

Tədqiqatçılar göstərirlər ki, “duz” sözü qədim dövrlərdən türk dillərində fayda, gözəllik, şirinlik kimi məcazi mənalara malik olmuşdur. Azərbaycan xalqı arasında “duz-çörək” andı, hətta qarğışı, eləcə də milli mənəviyyat simvolu olması və duzun düşüncə sistemindəki əhəmiyyətli yerini tam müəyyən edir. Azərbaycan xalqının deyim tərzində “duz-çörək kəsmək”, “duz-çörəyi tapdamaq”, “duzuna baxmaq”, “duz qatmaq”, “duzunu qaçırmaq”, “duzlu olmaq”, “duzsuz olmaq”, “duza getmək”, “duzdan qayıtmaq”, “duz kimi yalamaq”, “qız yükü, duz yükü” və çoxsaylı belə nümunələr hələ də geniş işlənilməkdə, duzun həm məişətdə, həm inam-inanc sistemində, həm də dildə əhəmiyyətli yer tutduğunu açıq-aydın göstərməkdədir.



Duzun bədnəzərdən qoruma xüsusiyyəti – oda tökük yandırmaqla bədnəzəri qırmaq ayini, məişətdə və sənayedə şirinə bir qədər duz qatmaqla onu xarab olmaqdan, keyfiyyətini itirməkdən qorumaq ənənəsi, duza qoymaq və duza basdırmaq kimi adətlər duzun müdafiəedici, qoruyucu funksiyasının olduğunu əyani şəkildə sübut edir. Ən qədim inanc və kitablarda da duzun əbədi həyat və qoruma əlaməti öz təsdiqini tapıb.

Duzla bağlı müxtəlif məcazi məna çalarlarının işlənməsinə bir çox ədəbiyyat nümunələrində rast gəlinir. Bu, duzun inanclar sistemində tutduğu yerlə əlaqəlidir. Bütün bunlar, xüsusilə türk mifologiyası və düşüncəsinə görə duzu həyat tərzinə daxil edən Nuhun nəvəsi və Türkün oğlu Tutukla bağlı əfsanənin Azərbaycan, xüsusilə də ən qədim duzçıxarma mədəni və sənayesinə malik Duzdağın yerləşdiyi Naxçıvanla bağlılığı daha inandırıcı görünür. Beləliklə, duz və Duzdağ Naxçıvan folklor və ədəbi mühitində əhəmiyyətli bir predmet kəsb edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı sərəncamlarla “Naxçıvan: ilkin şəhər və Duzdağ” mövzusunda elmi konfransın keçirilməsi və eləcə də Naxçıvan Duz Muzeyinin yaradılması Naxçıvan Duzdağının xüsusi əhəmiyyətə malik olduğunu diqqətə çatdırmaqla onun tarixi-mədəni abidə olaraq qiymətləndirilməsinə, Duzdağın tarixi və mədəni əhəmiyyətli bir abidə kimi elmin, ədəbiyyatın və ümumən, ictimai fikrin mərkəzi halına gəlməsinə də vəsilə olub. Bundan sonra Duzdağ ədəbi yaradıcılığın da diqqətini özünə cəlb edib, geniş mövzuya çevrilib. Bu mənada, tədqiqatçıların dililə desək, demək olar ki, Naxçıvan ədəbi və folklor mühitində bir bədii predmet kimi duzun “külli-ixtiyarlığı”, yəni məna çoxvariantlığı və ona münasibətin özünəməxsusluğu bu diyarın təbiətindən doğur.

**Ramiz QASIMOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent***

# *“İstedad-XXI əsr”* hazırlıq kurslarının Ordubad filialının dinləyiciləri qəbul imtahanında uğurlu nəticələr əldə ediblər

***Bu gün muxtar respublikamızda hər sahədə olduğu kimi, təhsildə də tərəqqi dövrü yaşanır. Təhsil müəssisələrində müasir infrastrukturun yaradılması, təhsilin keyfiyyətinin yüksəldilməsi, maddi-texniki bazaların gücləndirilməsi məzunların qəbul imtahanlarında yüksək nəticələr qazanmalarını təmin edir. Naxçıvan şəhərində “İstedad-XXI əsr” hazırlıq kurslarının təşkili də bu istiqamətdə görülən işlərin real nəticəsidir. Kurslar yüksək biliyə malik abituriyentlərin hazırlanmasında, müxtəlif xarici dillərin tədrisində, məktəbəqədər və ibtidai sinif şagirdlərinin istedadlarının üzə çıxarılmasında mühüm rol oynayır.***





“İstedad-XXI əsr” hazırlıq kursları 2014-2015-ci tədris ilindən etibarən fəaliyyətə başlayıb. 2017-2018-ci tədris ilindən kursun Şərur, Şahbuz, Culfa və Ordubad filialları yaradılıb. Bir ildir ki, fəaliyyətə başlamasına baxmayaraq, Ordubad filialı da böyük uğurlara nail olub. Filialın direktoru Gündüz Babayev söhbətində bildirdi ki, müasir təlim modeli və tədris üsulları ilə işləyən, yüksək intellektə malik bacarıqlı müəllim heyəti təhsilimizə öz töhfəsini verməyə çalışır. Əsas vəzifəsi şagirdlərin dünyagörüşünü inkişaf etdirmək, onlara elmin əsaslarını öyrətmək, ölkəmizin inkişafı naminə fədakarlıqla çalışan vətəndaş tərbiyə etməkdən ibarətdir. Kurs öz fəaliyyətində “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda təsbit olunmuş prinsipləri əsas tutur. Həmçinin təlim-tərbiyə prosesinin təşkilini, tədris materiallarının keyfiyyətlə mənimsənilməsini, şagirdlərin qabiliyyətlərinin inkişaf etdirilməsini diqqətdə saxlayır.

Öyrəndik ki, Ordubad Texniki Peşə və Sürücülük Məktəb Kompleksinin 3-cü mərtəbəsində kurs üçün sinif otaqları ayrılıb, maddi-texniki bazası gücləndirilib, buraya imtahan yolu ilə ixtisaslı müəllimlər cəlb olunublar. Müəllim və dinləyicilərin ixtiyarına 4-ü elektron lövhəli olmaqla, 12 sinif, 1 qeydiyyat otağı verilib.

2017-2018-ci tədris ili ərzində kursda 14 müəllim 69 dinləyicinin Azərbaycan dili və ədəbiyyat, riyaziyyat, tarix, kimya, fizika, biologiya, xarici dillər, coğrafiya fənlərindən imtahanlara hazırlıq mərhələsi ilə məşğul olub. Dinləyicilər üçün hər ay kursdaxili pulsuz sınaq imtahanları, fənlər üzrə daxili qiymətləndirmə testləri keçirilib. Şagirdlər, eyni zamanda muxtar respublikada keçirilən sınaq imtahanlarında da iştirak ediblər.

Ötən tədris ilində 28 nəfər 11-ci sinif dinləyicisi kursda təhsil alıb ki, onların da hamısı ali məktəblərə qəbul imtahanlarında iştirak edib. Dövlət İmtahan Mərkəzinin müəyyənləşdirdiyi keçid balını toplayan abituriyentlər ixtisas seçimi mərhələsinə buraxılıb, filial 100 faiz qəbul nəticəsi göstərib. Dinləyicilərdən üç məzun kursun yaratdığı üstünlüklərdən yararlanaraq qəbul imtahanlarında 600-dən yuxarı bal toplayıb. İmtahanda kursdaxili ən yüksək balları Vənənd kənd tam orta məktəbinin məzunları Əli Nağıyev və Sunay Rəsulzadə toplayıblar. Belə ki, Əli Nağıyev IV qrup üzrə 657, Sunay Rəsulzadə III qrup üzrə 610 balla müəllim və valideynlərini sevindiriblər. Unus kənd tam orta məktəbinin məzunu Fatimə Hüseynova isə III qrup üzrə imtahan verərək 622 bal toplayıb.

Həmsöhbət olduğumuz Əli Nağıyev dedi ki, orta məktəbdə oxuduğu vaxtdan texniki fənlərə daha çox maraq göstərir, fənn olimpiadalarında fəal iştirak edirdim. Arzum yüksək nəticə qazanmaq idi. Bunun üçün səylə çalışdım və istədiyim nəticəni əldə etdim. Bu uğuru qazanmağımda təhsil aldığım məktəblə yanaşı, hazırlıq keçdiyim kursun da böyük rolu oldu. Buna görə də bizə dərs deyən müəllimlərimə və yaradılan hərtərəfli şərait üçün dövlətimizə minnətdaram.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

*Müasir dövrdə milli maraqlara və dəyərlərə əsaslanan gənclər siyasəti gəncləri ölkədə gedən proseslərdə iştirakçı, eyni zamanda bunlardan yararlanan sosial qrup kimi qəbul edir. Hazırda gənclər ictimai həyatın bütün sahələrində təşəbbüskar kimi çıxış edir, irimiqyaslı layihələrin icrasına qoşulur, buradakı fəallıqları onların vətənpərvərlik ruhunun və vətəndaşlıq mövqeyinin möhkəmlənməsinə stimul verir. Belə şərait isə gənclərə inteqrasiya, mübadilə, ən əsası yaşadığı bölgə üçün lazımlı fərd kimi yetişmək imkanları yaradır.*

# İntellektual oyunlar gənclərimizə nə qazandırır?





Müasir dövrün reallıqları yüksək bilik və bacarıqlara malik, dövrün tələblərinə cavab verə biləcək insan kapitalının formalaşdırılmasını tələb edir. Xüsusilə bilik və informasiya mübarizəsinin getdiyi bir dövrdə əsas qüvvə olaraq gənclərin intellektual qabiliyyətlərinin inkişaf etdirilməsi xüsusi önəm kəsb edir. Bu mənada, ölkənin gələcək inkişafı insan kapitalından, bu isə mükəmməl təhsil sistemindən asılıdır. Sevindirici haldır ki, bu gün muxtar respublikamızda həmin sahə xüsusilə diqqət mərkəzindədir.

Təhsil ocaqlarında, eləcə də məktəbdənkənar təhsil müəssisələrində gənclərin elmə, təhsilə marağını artıran müxtəlif bilik yarışlarının keçirilməsi əsas hədəflərdən biridir. Bu gün Naxçıvan Muxtar Respublikasında da gənclərin intellektual səviyyəsinin, bilik və məlumat bazasının möhkəmlənməsi üçün müxtəlif layihələr həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikamızda yeniyetmə və gənclər arasında mütəmadi olaraq intellektual oyunlar təşkil edilir. "Xəmsə", "Axtar tap", "Kim? Nə? Hara?", "Nə? Harada? Nə zaman?", "Vətəni tanı", "Azərbaycanı tanı", "İntellektual gənc", "Xəzinə axtarışı" və sair kimi oyunlar, əslində, uşaq, yeniyetmə və gənclərin həyatında mühüm dəyişikliklərə səbəb olur. Belə oyunlar yeniyetmə və gənclərin intellektual inkişafı üçün böyük əhəmiyyət daşıyır.

Bu gün hər bir gənc müasir dövrün tələblərini təhlil etmək və onun əsasında qərar qəbul edə bilmək bacarığına malik olmalıdır. Buna görə də intellektual oyunlarda iştirak etmək gəncləri gələcəkdə bir mütəxəssis kimi formalaşdırmaqda, özünü təsdiq etməkdə böyük rol oynayır. Bu zaman ortaya bir sual çıxır: Bəs məktəbli yeniyetmələrin həyatında intellektual oyunlar hansı rolu oynayır?

Belə oyunlar vasitəsilə məktəblilər arasında ünsiyyət qurulur, onlar özlərinə yeni dostlar qazanırlar. Yeniyetmələr, həmçinin başqalarına hörmət etmək, səbirli olmaq, liderlik kimi xüsusiyyətləri də oyun vasitəsilə əldə edirlər. Oyun fiziki, sosial, psixoloji və emosional tərəfdən məktəbliyə təsir edir, onun inkişafında böyük rol oynayır. Araşdırmalar göstərir ki, intellektual oyunlarla məşğul olan məktəblilərin elmi bilikləri mənimsəmələri 40 faizdən yuxarıdır.

Müasir dövrdə elm inkişaf etdikcə yeniyetmə və gənclərin bilik və bacarığını təkmilləşdirən meyarlar da meydana çıxıb. Gənclərin intellektual oyunlara cəlb edilməsi isə uğurlu bir addımdır, çünki onların intellekt səviyyəsinin yüksəldilməsi üçün görülən tədbirlər hərtərəfli inkişafa hesablanmış addımlardır. Bu gün Naxçıvanda keçirilən intellektual oyunlarda onlarla komanda mübarizə aparır. Bu oyunların komanda şəklində keçirilməsi isə onların kollektivləşməyə, kollektiv oyunlara marağını artırır. Belə yarışlarda iştirak edən gənclərin böyük əksəriyyətinin həm savadı, həm səviyyəsi onların daha böyük yarışlara cəlb edilməsinə imkan yaradır.

Yeniyetmə və gənclərimizin iştirak etdiyi intellektual yarışlarda sualların çoxunun ölkəmizin tarixi, mədəniyyəti, coğrafiyası ilə bağlı olmasını isə ələlxüsus qeyd etmək lazımdır. Bu, onlarda həm vətənpərvərlik hisslərinin yüksəldilməsinə, həm də milli şüurun formalaşdırılmasına öz təsirini göstərir. Məsələn, "Vətəni tanı" adlı intellektual oyun birbaşa Azərbaycançılığın, vətənpərvərliyin, qəhrəmanlığın, tarix və coğrafiyamızın geniş təbliğinə xidmət edir. Yaxud "Azərbaycanı tanı" intellektual oyununda Azərbaycan dövlətinin, onun ərazisinin, təbii sərvətlərinin, flora və faunasının tanıdılması iştirakçılarda vətənpərvərlik tərbiyəsinin formalaşmasında mühüm rol oynayır.

Təcrübə göstərir ki, intellektual yarışlarda qalib gələn komanda üzvləri ali məktəblərə yüksək ballarla qəbul olurlar. Belə ki, intellektual yarışların iştirakçılarından 30 nəfəri bu il ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayaraq tələbə adını qazanıblar.

Son zamanlar geniş vüsət alan bu intellektual oyunların qalibləri isə mütəmadi olaraq mükafatlandırılırlar. Onların ən böyük mükafatı isə budur: gənclər belə oyunlarda iştirak etməklə həm özlərinin bilik səviyyəsini, həm də müasirləşən dünyanı öyrənirlər.

✍ **Ceyhun MƏMMƏDOV**

## *"Təbii fəlakətlər zamanı zərərçəkmiş əhalinin tibbi təminatının təşkili"* mövzusunda keçirilən kompleks mülki müdafiə təlimi başa çatıb



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə Ordubad Rayon Mərkəzi Xəstəxanasında keçirilən təlimin əsas məqsədi səhiyyə müəssisəsinin fövqəladə hallara hazırlıq vəziyyətinin yoxlanılması, rayon ərazisində ehtimal olunan fövqəladə hallar zamanı zədələnmə (zəhərlənmə) ocaqlarında hakiməqədərki və ixtisaslaşdırılmış tibbi yardımın göstərilməsi üzrə tibb qüvvələrinin təcrübə qazanmasıdır. Bununla yanaşı, həmin təlimlərdə "Xüsusi dövr"də xəstəxananın dayanıqlı işinin təmin edilməsi və işçilərin mühafizəsinin təşkili üzrə rəhbər, komandir-rəis heyətinin bacarığının təkmilləşdirilməsi diqqət mərkəzində saxlanılıb.

Təlim iki mərhələdə həyata keçirilib. Birinci mərhələdə xəstəxananın fövqəladə hallarda fəaliyyət planının reallığı, fövqəladə halların tibbi-sanitar nəticələrinin aradan qaldırılmasına cəlb olunan orqanların və tibb qüvvələrinin hazırlığı yoxlanılıb. Hazırlıqla bağlı tibb qüvvələrinin və mülki müdafiə dəstələrinin hər bir üzvünün tabel təchizatı üzrə fərdi və tibbi mühafizəsinə, zəruri dərman preparatları, fərdi dərman qutuları, sarğı materialları, xüsusən də güclü təsiredici zəhərli maddələrdən qorunmaq üçün xüsusi profilaktika vasitələri ilə təchizatına baxış keçirilib. Təlim iştirakçılarına müxtəlif müdaxilələr təqdim edilərək şərti zədələnmə ocağında qəbul-çeşidləmə məntəqəsinin, ixtisaslaşdırılmış tibbi yardım briqadalarının hazırlığına qiymət verilib.

İkinci mərhələnin birinci təlim yerində təbii fəlakət, nəqliyyat qəzaları və yaşayış binalarında yanğın-partlayışlar zamanı xəsarət alanlara hakiməqədərki yardımın və xəstəxana şəraitində ixtisaslaşdırılmış həkim yardımının göstərilməsi suallarına baxılıb. Təlim rəhbərliyi tərəfindən verilmiş tapşırıq əsasında şərti fəlakət rayonundan gətirilmiş zədələnmişlərin qəbul-çeşidləmə məntəqəsində yerləşdirilməsi, qeydiyyata alınması, xəstələrin ağır və yüngül zədələnmişlər qruplarına ayrılması təşkil edilib, ağır xəstələr xəstəxana şəraitində ixtisaslaşdırılmış həkim yardımı üçün göndərilib. Bu təlim yerində həkim və orta tibb işçilərinin operativ və peşəkar müdaxilələri nəticəsində qarşıya qoyulmuş tapşırıqlar vaxtında yerinə yetirilib.

Növbəti təlim yerində isə Ordubad rayonu ərazisində ehtimal olunan radioaktiv, kimyəvi və bakterioloji (bioloji) zəhərlənmə şəraitində xəstəxana işçilərinin mühafizəsinin təşkil edilməsi, ərazidə dozimetrik nəzarətin həyata keçirilməsi, mühafizə rejimlərinin tətbiq edilməsi, gətirilən şərti zədələnmişlərin bölüşdürücü postunda çeşidlənməsi, qismən və tam sanitar təmizləmə işinin aparılması, paltar və ayaqqabıların dezaktivasiya olunması, həmçinin laboratoriya və tibbi təminat bölmələrinin işinin təşkili üzrə tapşırıqlar icra edilib.

Məlumat üçün qeyd edək ki, keçirilən kompleks mülki müdafiə təlimində xəstəxananın 15 nəfərdən ibarət yüksək hazırlıqlı travmatoloji, cərrahi və yanıq əleyhinə briqadaları, 33 nəfərdən ibarət mülki müdafiə dəstələri, 3 təcili tibbi yardım avtomobili, rayon Gigiyena və Epidemiologiya Mərkəzinin 7 nəfərdən ibarət ixtisaslaşdırılmış, həmçinin Ordubad Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin 10 nəfərdən ibarət təqlidetmə qrupları iştirak edib.

Təlim uğurla başa çatdırılıb, qarşıya qoyulmuş vəzifələrə əsasən nail olunub.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## *"Dərman bitkiləri"* müsabiqəsi keçirilib



***Şahbuz rayonunda bitkilərin toplanması və təbliği məqsədilə ümumtəhsil məktəblərinin şagirdləri arasında "Dərman bitkiləri" müsabiqəsi keçirilib.***

Rayon Gənclər və İdman İdarəsi, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının Gənclər Birliyi və Təhsil Şöbəsinin təşkilatçılığı ilə keçirilən müsabiqə iki mərhələdən – məktəbdaxili və rayon mərhələsindən ibarət olub.

Məktəb daxilində keçirilən müsabiqənin birinci mərhələsi yekunlaşıb və məktəblilər müsabiqənin şərtlərinə əməl edərək topladıqları bitkiləri rayon Gənclər və İdman İdarəsinə təhvil veriblər. Rayon mərhələsində münsiflər heyətinin qərarı ilə seçilən dərman bitkiləri Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində sərgilənib. Müsabiqədə mərkəzin dərnək üzvü Aytac Abbasova birinci yerə layiq görülüb. Badamlı qəsəbə tam orta məktəbinin şagirdi İsmayıl Paşayev ikinci, Şahbuz şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Solmaz Qəhrəmanlı isə üçüncü olub.

Qaliblər təşkilatçıların diplom və hədiyyələri ilə mükafatlandırılıblar.

Qeyd edək ki, toplanmış dərman bitkilərinin satış-sərgisi təşkil olunacaqdır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## *"Təşəbbüs"* kitabının təqdimatı olub

Tədbiri Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev açaraq bildirib ki, bu gün muxtar respublikamızda gənclərin mütaliə mədəniyyətinin artırılması diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublika Kitabxanasında, AMEA Naxçıvan Bölməsində, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində, Naxçıvan Dövlət Universitetində və Gənclər Mərkəzindəki elektron kitabxanalarda mövcud çoxsaylı ədəbiyyatlar gənclərimizin mütaliə mədəniyyətinin inkişafına geniş imkanlar açır.

Diqqətə çatdırılıb ki, bu gün yaradıcı gənclərimiz dövlətimizin onlara yaratdığı hərtərəfli şəraitdən istifadə edir, yeni-yeni əsərlər ərsəyə gətirirlər. Tural Həsənli də belə gənclərimizdəndir. O, roman və şeirlər kitablarının müəllifi kimi bu gün geniş oxucu kütləsi qazanıb.

AMEA Naxçıvan Bölməsinin əməkdaşları Elxan Yurdoğlu və Leyla Səfərova çıxış edərək bildiriblər ki, dedektiv janrda qələmə alınan və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik keyfiyyətlə nəşr olunan "Təşəbbüs" romanında müəllifin marağını cəlb edən aktual məsələlərlə bağlı fikirlər öz əksini tapıb.

Tural Həsənli tədbirin təşkilinə görə minnətdarlığını bildirib.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Hərbi qulluqçular arasında futbol birinciliyi



Torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanan, təlimlərdə fəal iştirak edərək daha da püxtələşən hərbi qulluqçularımız bu dəfə futbol meydançasında qələbə uğrunda yarışıblar. "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan futbol birinciliyində 17 komanda mübarizə aparıb. Əlahiddə Ümumqoşun Ordu komandanlığının təşkil etdiyi və olimpiya sistemi ilə keçirilən yarışda oyunları Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının hakimləri idarə ediblər.

Geniş tamaşaçı kütləsinin izlədiyi oyunlar gərgin mübarizə şəraitində keçib. 17 komanda arasından finala qədər yüksələn ən güclü 2 komandanın mübarizə apardığı final görüşündə 5-0 hesabı ilə qələbə qazanan tərəf Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının futbol komandası olub. Hərbi qulluqçuların futbol birinciliyində ikinci yerdə motoatıcılar, üçüncü yerdə isə xüsusi təyinatlılar qərarlaşıb. İlk üçlükdə yer alan komandalar Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən diplom və kuboklarla mükafatlandırılıblar.

**Nəriman NƏCƏFOV**

### *İtmişdir*

Babək rayonu, Cəhri kənd sakini Səfərova Laləzar Novruz qızının adına olan JN-2129[B] inventar nömrəli 10305018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktorun müavini:** RAUF ƏLİYEV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1490. Sifariş № 717